# XƏLİLBƏYLİ TƏBRİZ XƏLİLRZA OĞLU



1964-cü il fevralın 12-də Bakı şəhərində dünyaya göz açmışdır. 1981-ci ildə Bakı şəhəri M.Müşfiq adına 18 saylı orta məktəbi bitirmişdir. 1982-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmuşdur. Təhsilini qiyabi şöbədə davam etdirərək, həm də C.Cabbarlı adına ’’Azərbaycanfilm” kinostudiyasında işıqçı işləmişdir. 1991-ci ilin sonunda könüllü olaraq cəbhəyə yollanmışdır. Xramord və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərmişdir. Döyüşdəki şücaətinə görə DİN-nin ”Boz qurd” mükafatına layiq görülmüşdür. 1992-ci il yanvarın 31-də Təbriz Xəlilbəyli qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Xəlilbəyli Təbriz Xəlilrza oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı evin qarşısına xatirə lövhəsi vurulmuşdur.